AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

UNEC

AZƏRBAYCAN
DÖVLƏT
İQTİSAD
UNİVERSİTETİ

Təsdiq edirəm ______________________
"Maliyyə və audit" kafedrasının müdiri
**i.e.d., prof.Əvəz Ələkbərov**

*11 sentyabr 2025-ci il*

**"DÖVLƏT MALİYYƏSİ" fənni üzrə**
**İŞÇİ TƏDRIS PROQRAMI**
**(Sillabus)**

**I. Fənn haqqında məlumat**

**Fənnin kodu:** 00246
**Fənnin növü:** əsas
**Tədris ili:** 2025/2026
**Tədris semestri:** payız
**Tədris forması:** əyani
**Fakültə:** Maliyyə və mühasibat
**Qrup:** 600,602,604,606,605,610,612,614,6162,618
**Tədris yükü:** 60 saat (30/30)
**Kredit sayı:** 6 (altı)

**II. Müəllim haqqında məlumat**


**Fənni tədris edən müəllim:** i.e.d.,prof.Ə.Ə.Ələkbərov
i.e.d.,prof.M.X.Həsənli
i.e.n.,dos.T.T.Qurbanova
**Kafedra:** **Maliyyə və audit**
**E-mail ünvanı:** avaz.alakbarov@unec.edu.az
m.hasanli@unec.edu.az
tunzala_gurbanova@unec.edu.az
**İş telefonu:** **(012)492-59-13**

**Tələbələr üçün qəbul vaxtları:** **5 ci gün: 14-00**

## III. Fənnin təsviri

Dövlət maliyyəsinin əsaslarının öyrənilməsi müasir iqtisadi təhsilin ayrılmaz tərkib hissəsidir. Ölkənin iqtisadi qüdrətinin artması, maliyyənin cəmiyyətin həyatında rolunun yüksəlməsi ali təhsil müəssisələrinin iqtisadyönümlü fakultələrinin hamısında dövlət maliyyəsinin əsaslarının tədrisini zəruri edir.”Dövlət maliyyəsi” fənni Azərbaycan Respublikasında maliyyə sistemini, dövlət maliyyəsinin əsaslarını, maliyyə orqanlarının, habelə maliyyə münasibətlərinin digər iştirakçılarının hüquq və vəzifələrini, dövlət maliyyə nəzrətinin forma və metodlarını, büdcə qanunvericiliyinin əsaslarını və s. məsələləri əhatə edir.

## IV. Fənnin məqsədi və vəzifələri

Fənnin tədrisinin məqsədi tələbələrin dövlət maliyyəsi sahəsində analitik bilik və bacarıqlarını inkişaf etdirməkdir. Fənnin tədrisi iqtisadiyyat və idarəetmə ixtisas qrupunda təhsil alan tələbələrə yönəldilmişdir.

Kursun əsas vəzifələri:

- dövlət maliyyəsinin mövzularına nəzər yetirilərək tələbələri dövlət sektoru iqtisadiyyatı ilə tanış etmək;
- dövlət maliyyəsi sahəsində tələbələrin analitik bilik və bacarıqlarını inkişaf etdirilməsi,
- dövlətin gəlir və xərclərinin formalaşması, onların iqtisadiyyata təsirləri ilə bağlı biliklərin öyrədilməsi.

## V. Fənnin təlim nəticələri:

Fənnin təliminin sonunda tələbələr **bilməlidir:**

- Dövlət maliyyəsinin mahiyyətini
- Dövlət maliyyəsi ilə bələdiyyə maliyyəsinin əlaqələrini
- Büdcədən kənar fondları
- Dövlət krediti və onun idarə edilməsini
- Beynəlxalq maliyyə münasibətlərini
- Dövlətin xərclərinin xüsusiyyətləri
- Dövlətin gəlirlərinin xüsusiyyətləri
- Dövlət büdcəsinin formalaşması və s.

**Bacarmalıdırlar**:

- Dövlət xərclərinin iqtisadiyyata təsirlərini təhlil etməyi,
- Dövlət gəlirlərinin iqtisadiyyata təsirlərini təhlil etməyi,
- Dövlət büdcəsini və büdcə siyasətini təhlil etməyi və s.

## VI. Fənnin mühazirə mövzuları

Burada fənn üzrə tələbələrə oxunacaq mühazirə mövzularının adları təqdim olunur:

1. Maliyyə elminin predmeti, Dövlət maliyyəsinin əsasları
2. Dövlət maliyyə sistemi və onun formalaşması
3. Kənar təsirlər və ictimai məhsullar
4. Dövlət maliyyə siyasəti. Dövlət maliyyəsinin idarə edilməsi

5. Azərbaycan Respublikasının büdcə sistemi və dövlət büdcəsi
6. Dövlət gəlirləri
7. Vergitutma nəzəriyyə və praktika
8. Dövlət xərcləri
9. Gəlir bölgüsü və rifah
10. Sosial sığorta və sosial təminat
11. Dövlət büdcədənkənar fondları
12. Dövlət krediti. Dövlət borcunun idarə edilməsi
13. Dövlət maliyyə alətlərinin maliyyə bazarlarnda tətbiqi
14. Dövlət maliyyə nəzarətinin təşkili
15. Beynəlxalq maliyyə

**VII. Prerekvizitlər**

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.

**VIII. Fənnin tədris metodologiyası** - Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, sual – cavab, tənqidi yanaşma, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

**IX. Əsas dərslik və ədəbiyyat**


1. Ə.Ə.Ələkbərov və digərləri “Maliyyə bazarları” UNEC nəşriyyatı,Bakı 2023
2. Ə.Ələkbərov və digərləri. “Sığorta işi”, Kooperasiya nəşriyatı, Bakı 2018
3. M.X.Həsənli və digərləri “Maliyyə” Bakı, dərslik. 2012
4. Conatan Qruber,. **Dövlət maliyyəsi** və dövlət siyasəti, (Azərbaycan Beynəlxalq Bankının maliyyə dəstəyi ilə beynlxalq nəşrin tərcüməsi) TEAS Press nəşriyyat evi, Bakı, 2021
5. Elçin Süleymanov, **Dövlət maliyyəsi**, Qafqaz universiteti nəşri, Bakı, 2015
6. Harvey Rosen and Ted Gayer, **Public Finance,** 10th edition, McGraw-Hill, 2014
7. Metin Erdem, Doğan Şenyüz, İsmail Tatlıoğlu, **Kamu Maliyesi, Ekin Yayınevi, 2017**
8. Anadolu Universiteti, **Kamu Maliyyesi, 2006**


**X. Fənnin mühazirə mətnləri**

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

**XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Maliyyə elminin predmeti, Dövlət maliyyəsinin əsasları | Maliyyə elminin və metodları<br>Maliyyənin mahiyyəti və funksiyaları<br>Bölgü və yenidənbölgü<br>Maliyyə ehtiyatlarının tərkibi<br>Bazar uğursuzluğu, birbaşa və dolayı təsirlər<br>Dövlət maliyyəsinin alətləri –nəzəri və empirik alətlər<br>Bazar tarazlığı –tələb və təklif əyriləri | C. Qruber,. s. 1-26 |
| 2 | Dövlət maliyyə sistemi və onun formalaşması | Maliyyə sistemi anlayışı və onun tərkibi<br>Maliyyə sisteminin əlamətləri və inkişaf prosesi<br>Əmtəə - pul münasibətləri<br>Maliyyə münasibətləri<br>Maliyyə sisteminin sahələri, həlqələri və kateqoriyaları | C. Qruber,. s. 129-188 |
| 3 | Kənar təsirlər və ictimai məhsullar | Dövlət və bələdiyyə (ictimai) maliyyəsi anlayışı<br>İctimai məhsullar anlayışı, onların optimal səviyyəsi<br>İctimai məhsulların dövlət və özəl təminatı<br>Ətraf mühitlə və sağlamlıqla bağlı kənar təsirlər<br>İctimai məhsulların xərc və faydalarının ölçülməsi<br>Dövlət layihələrinin xərclərinin qiymətləndirilməsi | M.X.Həsənli “Maliyyə” səh. 112-128 |
| 4 | Dövlət maliyyə siyasəti. Dövlət maliyyəsinin idarə edilməsi | Maliyyə siyasətinin vəzifələri və təşkili prinsipləri<br>Maliyyə siyasətinin strategiyası və taktikası<br>Dövlətin fiskal siyasəti<br>Maliyyənin idarə edilməsinin zəruriliyi, onun hüquqi əsasları<br>Maliyyənin idarəetmə orqanları<br>Maliyyənin planlaşdırılmasının mahiyyəti, mərhələləri, metodları və prinsipləri<br>Maliyyə proqramları<br>Maliyyə mühəndisliyi anlayışı və maliyyə mühandisliyi elminin mahiyyəti | E.Süleymanov, s. 93-106 |
| 5 | Azərbaycan Respublikasının büdcə sistemi və dövlət büdcəsi | Büdcə anlayışı və onun sosial iqtisadi mahiyyəti<br>Büdcənin hüquqi forması və onunu funksiyaları<br>Büdcə quruluşu anlayışı və onunla dövlət ərazi quruluşu forması arasında qarşılıqlı əlaqə | E.Süleymanov, s. 93-106 |

| | | | |
|---|---|---|---|
| | | Büdcə sistemi anlayışı və Azərbaycan Respublikasının büdcə sisteminin təşkili prinsipləri<br>Azərbaycan Respublikasının icmal büdcəsi.<br>Müasir dövrdə büdcə münasibətlərinintəşkilinin təkmilləşdirilməsi. | |
| **6** | Dövlət gəlirləri | Gəlirlərin iqtisadi məzmunu və tərkibi<br>Vergili və qeyri-vergili gəlirləri<br>Vergi sistemi və vergi siyasəti<br>Vergi sisteminin ədalətliliyinin ölçülməsi<br>Gəlir bölgüsü və sosial proqramlar<br>Optimal vergitutma<br>Əmək təklifi üzrə vergilər | M.X.Həsənli "Maliyyə" səh. 134-139 |
| **7** | Vergitutma nəzəriyyə və praktika | Vergitutmanın növləri<br>Sərvət və istehlak vergiləri<br>Vergitutma təcrübəsi<br>Vergilərin strukturu<br>Vergi bazası və vergi dərəcələri<br>Vergi sistemlərinin ədalətliliyi<br>Şaquli və üfüqi bərabərlik<br>Gəlir vergisi bazası | C. Qruber,.s. 335-433 |
| **8** | Dövlət xərcləri | Dövlət xərclərinin təşkili<br>Xərclərin maliyyələşməsi<br>Xərclərin təsnifatı<br>Yerli xərclər<br>Büdcənin tənzimlənməsi xərcləri<br>Rəqəmsal xəzinədarlıq | C. Qruber,.s. 433-471 |
| **9** | Gəlir bölgüsü və rifah | Gəlir bölgüsü anlayışı.<br>Gəlirlərin bölüşdürülməsinə təsir edən amillər.<br>Gəlir bölgüsünün ölçülməsinin əsas növləri.<br>Gəlir bölgüsünün növləri: bərabər və qeyri-bərabər gəlir bölgüsü.<br>Rifah anlayışı və rifah nəzəriyyəsi | C. Qruber,.s. 511-551 |
| **10** | Sosial sığorta və sosial təminat | Sosial rifah Sosial sığorta və özünüsığorta.<br>Sığorta ilə bağlı problem: mənəvi risk və onun formaları<br>Optimal sosial sığorta.<br>Sosial müdafiənin istehlakı hamarlaşdırmada faydaları.<br>Sosial müdafiə sahəsində islahatlar. | M.Erdem, D.Şenyüz, İ.Tatlıoğlu., s. 93-112 |
| **11** | Dövlət büdcədənkənar fondları | Büdcədənkənar fond anlayışı.<br>Dövlətin xüsusi fondları.<br>Bələdiyyələrin büdcədənkənar fondları.<br>Ehtiyat Fondu.<br>Məqsədli büdcədənkənar fondlar. | C. Qruber,.s. 551-585 |

| | | | |
|---|---|---|---|
| **12** | Dövlət krediti. Dövlət borcunun idarə edilməsi | Dövlət kreditinin mahiyyəti, funksiyaları və təsnifatı.<br>Dövlət borcu və büdcə kəsiri.<br>Dövlət borcunun formaları.<br>Dövlətin fiskal mövqeyi.<br>Dövlət borclarının ödənilməsi mexanizmi.<br>Dövlət borcunun cəmiyyətin inkişafına təsiri.<br>Dövlət borcunun idarə edilməsi və rəqəmsallaşma.<br>Dövlət borclarının ödənilməsinin təşkili. | M.X.Həsənli "Maliyyə" səh. 84-89 |
| **13** | Dövlət maliyyə alətlərinin maliyyə bazarlarnda tətbiqi | Maliyyə bazarının quruluşu.<br>Maliyyə vasitəçiliyi mexanizmi.<br>Maliyyə vasitəçilərinin tərkibi.<br>Maliyyə bazarlarının vasitələri.<br>Rəqəmsallaşma şəraitində maliyyə vasitəçiliyi.<br>. | C. Qruber,.s. 89-119 |
| **14** | Dövlət maliyyə nəzarətinin təşkili | Maliyyə nəzarəti anlayışı, onun obyekti və subyekti.<br>Maliyyə nəzarətinin təsnifatı.<br>Maliyyə nəzarətinin prinsipləri.<br>Maliyyə nəzarətinin təşkili formaları və metodları.<br>Maliyyə nəzarətinin təşkilati-hüquqi əsasları.<br>Rəqəmsallaşma şəraitində maliyyə nəzarəti. | C. Qruber,.s. 273--303 |
| **15** | Beynəlxalq maliyyə | Beynəlxalq maliyyə münasibətləri və onun rəqəmsallaşması.<br>Beynəlxalq maliyyə siyasəti və investisiya münasibətləri.<br>Beynəlxalq valyuta – kredit münasibətləri.<br>Valyuta tənzimlənməsi və valyuta kursu.<br>Beynəlxalq hesablaşmalar.<br>Tədiyyə balansı.<br>Beynəlxalq maliyyə təşkilatları. | M.Erdem, D.Şenyüz, İ.Tatlıoğlu., s. 535-557<br>E.Süleymanov, s. 204-206 |
| | **Yekun imtahan** | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı; 5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir. Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal:5 bal
- 9 bal: 4,5 bal
- 8 bal : 4baI
- 7 bal: 3,5bal
- 6 bal: 3 bal
- 5 bal: 2,5 bal
- 4bal: 2bal
- 3 bal:1,5 bal
- 2bal: I bal
- I bal:0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir. B = (((bI +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah; b - seminar dərslərində alınan müxtəlif ballar s - semestr ərzində verilən cavabların sayı

m - aktivlik bahna aynlan maksimal bal;

l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV Fənn üzrə ara və aralıq qiymətləndirmə**

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada 8-ci və 9-cu tədris həftələri ərzində, aralıq qiymətləndirmə isə semestrin sonunda yazılı üsulda keçirilir.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır . Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| 51 baldan aşağı olduqda | - “qeyri-kafi” | - F |
| 51-60 bal | - “qənaətbəxş” | - E |
| 61-70 bal | - “kafi” | - D |
| 71-80 bal | - “yaxşı” | - C |
| 81-90 bal | - “çox yaxşı” | - B |
| 91-100 bal | - “əla” | - A |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.